**Isbandiyarov G.K.**[♦]

**DOI: 10.25108/2304-1730-1749.iolr.2022.67.85-97**
**UDC: 34; 343; 343.2; 343.21; 243.213**

# General concept and possible cases of a law otherwise improving the position of the person who committed the crime

**Abstract**: Despite the fact that after the collapse of the USSR, in the countries that gained independence, including the Republic of Azerbaijan, more than 20 years have passed since the introduction of norms into the criminal legislation otherwise improving the situation of the person who committed the crime, and during this time a lot of scientific -research work, the final concept of this law, the possible forms and systematic classification is still not developed.

Although the rules otherwise improving the situation of the person who committed the crime are mainly contained in the relevant chapters of the General Part of the Criminal Law, they are not limited to these chapters and are also found in other chapters. This circumstance determines that this applies not only to the norms that otherwise improve the position of the person who committed the crime, but also to the norms that eliminate the criminality of the act and mitigate the punishment.

In the presented article, although in a general form, an attempt is made to solve this problem.

**Keywords:** persons; committing crimes (the offender); otherwise improve position of the person; criminal legislative; criminal action; norms that eliminate the criminality of the act; norms mitigating punishment; the norm of criminal law; the General part of the Criminal Code; the Special part of the Criminal Code.

## References

1. Decision No. 4 of the Plenum of the Supreme Court of the Republic of Azerbaijan dated June 25, 2003 “On the practice of imposing criminal penalties by courts”. Available at: http://supremecourt.gov.az/post/view/151 (accessed: 09.03.2022) (in Azerbaijani).

2. Criminal Code of the Republic of Azerbaijan of 1999 (as amended and supplemented on December 1, 2021). Available at: http://e-qanun.az/framework/46947 (accessed: 09.03.2022) (in Azerbaijani).

3. Criminal Code of the Azerbaijan SSR of 1960 / Collection of Criminal Laws (1920-2000). Baku, Huquq Yayin evi Publ., 2014, 1182 p. (in Azerbaijani).

4. Criminal Code of the Republic of Azerbaijan of 1960 (as amended and supplemented on 26 July 1999). Baku, Huquq edebiyyati Publ., 278 p. (in Azerbaijani).

5. Commentary of the Criminal Code of the Republic of Azerbaijan. Ed. by Prof. F.Y. Samandarov. Part 1. Baku, Huquq yayin evi Publ., 2018, 704 p. (in Azerbaijani).

6. Decision of the Plenum of the Constitutional Court of the Republic of Azerbaijan dated March 18, 2013 “On Interpretation of Articles 18.5, 61.1.1 and 65 of the Criminal Code of the Republic of Azerbaijan”. Available at: http://www.constcourt.gov.az/decisions/266 (accessed: 03.03.2022). (in Azerbaijani).

7. Decision of the Plenum of the Constitutional Court of the Republic of Azerbaijan dated

[♦] **Isbandiyarov Galandar Kochari oglu** - Senior Scientific Researcher on the Department of Criminal Law and Criminal Procedure of Institute of Law and Human Rights (Azerbaijan). E-mail: q.isbandiyarov@gmail.com

September 6, 2010 "On Interpretation of Articles 18 and 83.1 of the Criminal Code of the Republic of Azerbaijan". Available at: http://www.constcourt.gov.az/decisions/182 (accessed: 03.03.2022). (in Azerbaijani).

8. Barkanov A.N. *Obratnaya sila ugolovnogo zakona*. Dis. kand. yurid. nauk [Retroactive effect of criminal law. PhD in Law Diss.]. Saratov, 2000, 191 p.

9. Galiev B.B. *Temporal'noe deystvie ugolovnogo zakona (sravnitel'no-pravovoe issledovanie po zakonodatel'stvu Kazakhstana i Rossii)*. Dis. kand. yurid. nauk [Temporal action of the criminal law (comparative legal research under the legislation of Kazakhstan and Russia). PhD in Law Diss.]. Chelyabinsk, 2006, 197 p.

10. Erasov A.M. *Obratnaya sila ugolovnogo zakona*. Dis. kand. yurid. nauk [Retroactive effect of criminal law. PhD in Law Diss.]. Moscow, 2004, 217 p.

11. Zhuravleva E.M. *Deystvie ugolovnogo zakonodatel'stva Rossiyskoy Federatsii vo vremeni*. Dis. kand. yurid. nauk [The effect of the criminal legislation of the Russian Federation in time. PhD in Law Diss.]. Moscow, 1997, 180 p.

12. *Kurs ugolovnogo prava*. v 5 t. pod red. N.F. Kuznetsovoy, I.M. Tyazhkovoy. T. 1. Obschaya chast'. Uchenie o prestuplenii [Course of criminal law in 5 volumes. Part 1. General part. Doctrine of crime]. Moscow, IKD Zertsalo-M Publ., 2002, 624 p.

13. Lyapunov Y.I. *Deystvie vo vremeni norm Obschey chaste ugolovnogo zakonodatel'stva* [Action of the General part of criminal law in time]. *Sotsialisticheskaya zakonnost' Journal*. 1983. No. 8, pp. 28-31.

14. Popov F.N. *Ugolovnyi zakon i ego obratnaya sila. Seriya Sovremennye standarty v ugolovnom prave i ugolovnom protsesse* [Criminal law and its retroactive effect. Series Modern Standards in Criminal Law and Criminal Procedure]. Ed. by B.V. Volzhenkin. S. Petersburg, 1998, 48 p.

15. *Ugolovnyi kodeks Respubliki Belarus* [Criminal Code of Belarus]. Available at: http://уголовный-кодекс.бел (accessed: 16.03.2022).

16. *Ugolovnyi kodeks Latvii* [Criminal Code of Latvia]. Available at: http://www.pravo.lv/likumi/07_uz.html (accessed: 17.03.2022).

17. *Ugolovnyi kodeks Uzbekistana* [Criminal Code of Uzbekistan]. Available at: http://online.zakon.kz/Document/?doc_id=30421110#pos=1;-173 (accessed: 17.03.2022).

18. *Ugolovnyi kodeks Ukrainy* [Criminal Code of Ukraine]. Available at: https://meget.kiev.ua/kodeks/ugolovniy-kodeks/ (accessed: 16.03.2022).

19. *Ugolovnyi kodeks Estonii* [Criminal Code of Estonia]. Available at: http://constitutions.ru/?p=446 (accessed: 16.03.2022).

20. *Ulozhenie o nakazaniyah ugolovnykh i ispravitel'nyh 1845* [Code of Criminal and Correctional Punishments of 1845]. S. Petersburg, Printing house of the 2nd branch of the property of Her Imperial Majesty's Chancellery, 1845, 898 p.

İsbəndiyarov Q.K.♦

DOI: 10.25108/2304-1730-1749.iolr.2022.67.85-97
UOT: 34; 343; 343.2; 343.21; 243.213

# Cinayət törətmiş şəxsin vəziyyətini başqa cür yaxşılaşdıran qanunun ümumi anlayışı və mümkün halları

**Xülasə**: SSRİ-nin süqutundan sonra müstəqillik qazanmış ölkələrdə, o cümlədən Azərbaycan Respublikasında cinayət törətmiş şəxsin vəziyyətini başqa cür yaxşılaşdıran normaların cinayət qanunvericiliyinə daxil edilməsindən 20 ildən çox müddət keçməsinə və bu zaman ərzində xeyli sayda elmi-tədqiqat işlərinin aparılmasına baxmayaraq, bu növ qanunun yekun anlayışı, mümkün formaları və sistematik təsnifatı hələ də işlənilib hazırlanmamışdır.

Cinayət törətmiş şəxsin vəziyyətini başqa cür yaxşılaşdıran normalar əsasən cinayət qanununun Ümumi hissəsinin qeyd olunanlara müvafiq fəsillərində yer alsa da, həmin fəsillərlə məhdudlaşmır, digər fəsillərdə də rast gəlinir. Bu halın yalnız cinayət törətmiş şəxsin vəziyyətini başqa cür yaxşılaşdıran normalara deyil, həm də əməlin cinayət olmasını aradan qaldıran və cəzanı yüngülləşdirən normalara da aid olması müəyyən edilir.

Təqdim olunan məqalədə məhz bu vəzifənin ümumi formada olsa da həllinə səy göstərilmişdir.

**Açar sözlər**: cinayət törətmiş şəxs; şəxsin vəziyyətini başqa cür yaxşılaşdıran; cinayət qanunvericiliyi; cinayət əməli; əməlin cinayət olmasını aradan qaldıran normalar; cəzanı yüngülləşdirən normalar; cinayət hüquq norması; cinayət məcəlləsinin Ümumi hissəsi; cinayət məcəlləsinin Xüsusi hissəsi.

Cinayət törətmiş şəxsin vəziyyətini başqa cür yaxşılaşdıran qanunların qüvvəsinin geriyə şamil edilməsi (CM-in 10.3-cü maddəsi) və başqa cür ağırlaşdıran qanunların qüvvəsinin geriyə şamil edilməməsi (10.4-cü maddə) müstəqil Azərbaycan Respublikasının cinayət qanunvericiliyi üçün yenilikdir. Bu normalar ilk dəfə 27 yanvar 1993-cü il tarixli qanunla1960-cı il CM-in 6-cı maddəsinə daxil edilmiş, qüvvədə olan 1999-cu il tarixli CM-də isə onların yekun sistemi təsbit olunmuşdur. Son iyirmi ildə cinayət qanununun zamana görə qüvvəsi ilə bağlı tədqiqat aparmış müəlliflər bu məsələyə xüsusən diqqət yetirirlər [8, s.141; 9, s.151-152; 10, s.150; 11, s.10].

Cinayət törətmiş şəxsin vəziyyətini başqa cür yaxşılaşdıran normalar əsasən CM-in Ümumi hissəsində yer alır, bununla belə, Xüsusi hissənin bəzi normaları da bu kateqoriyaya aid edilə bilər. Yeni cinayət qanunun qəbul edildiyi hallarda, prinsipcə, Ümumi hissənin hər hansı fəslində cinayət etmiş şəxsin vəziyyətini yüngülləşdirən normaların yer alması mümükündür. Buna görə, başqa cür yaxşılaşdıran qanunu geniş və dar mənada nəzərdən keçirmək lazım gəlir. Geniş mənada, bu, cinayət törətmiş şəxsə qarşı daha mərhəmətli münasibəti şərtləndirən hər hansı norma ola bilər. Məsələn, nəzərdən keçirilmiş məhkəmə hökmlərinin cəza təyini ilə bağlı əsaslandırma hissəsində məhkəmələr əksər hallarda cinayət qanunvericiliyinin prinsiplərinə (CM-in 5-9-cu maddələri)

♦ **Isbəndiyarov Qələndər Köçəri oğlu** – Hüquq və İnsan Haqları İnstitutu “Cinayət hüququ və cinayət prosesi” şöbəsinin böyük elmi işçisi (Azərbaycan). E-mail: q.isbandiyarov@gmail.com

istinad edirlər. Məlum olduğu kimi, əvvəlki cinayət qanunlarında cinayət qanunvericiliyinin prinsipləri təsbit olunmamışdı, cinayət-hüquq nəzəriyyəsinə məlum olsa da, bu prinsiplər ilk dəfə 1999-cu il CM-ə daxil edilmişdir.

Dar mənada, cinayət törətmiş şəxsin vəziyyətini başqa cür yaxşılaşdıran qanun məhz CM-in 10.3-cü maddəsinin mənasından irəli gələn məzmun konturları ilə çərçivələnir. Bunlar məhkəmələr tərəfindən əməlin tövsifi, cəza təyini və cinayət məsuliyyəti ilə bağlı digər məsələlərin həlli zamanı tətbiq edilməli olan (imperativ) və ya tətbiq edilə bilən (fakultativ) normalardır.

Müəlliflərdən Y.İ.Lyapunov onları "əməlin cinayət və cəzalanan olmasını bilavasitə müəyyən etməyən, cinayət tərkibinin əlamətlərini formalaşdırmayan və onların törədilməsinə görə sanksiya nəzərdə tutmayan" [13, s. 29] normalar kimi fərqləndirmişdi. Belə normaların sistemini yaratmaq cəhdləri də edilmişdir. Belə ki, sovet cinayət hüquq nəzəriyyəsində ənənəvi olaraq və hazırda da bir sıra müəlliflərin tədqiqatlarında həmin normaların aşağıdakı sisteminə əsaslanırlar: cəza təyini haqda normalar; cinayət məsuliyyətindən və cəzadan azad etmə haqda normalar; məhkumluq haqda normalar [13, s. 28-31; 14, s. 36; 12, s. 107]. Cinayət törətmiş şəxsin vəziyyətini başqa cür yaxşılaşdıran normalar əsasən cinayət qanununun Ümumi hissəsinin qeyd olunanlara müvafiq fəsillərində yer alsa da, həmin fəsillərlə məhdudlaşmır, digər fəsillərdə də rast gəlinir. Bu hal yalnız cinayət törətmiş şəxsin vəziyyətini başqa cür yaxşılaşdıran normalara deyil, əməlin cinayət olmasını aradan qaldıran və cəzanı yüngülləşdirən normalara da aiddir (məsələn, CM-in 28.2-ci maddəsi).

Buna görə, qüvvədə olan CM-in Ümumi hissəsini 1960-cı il CM-lə müqayisədə bütünlüklə təftiş etmək, habelə 1999-cu il CM-in qüvvəyə mindiyi vaxtdan başlayaraq edilmiş dəyişiklikləri araşdırmaq və bunların əsasında cinayət törətmiş şəxsin vəziyyətini başqa cür yaxşılaşdıran hər cür normaları müəyyən edib sistemləşdirmək bu məqalənin əsas məqsədlərinə aiddir. Bəhs olunan normalar aşağıdakı kimi sistemləşdirilə bilər:

1) Cinayət, cinayət məsuliyyəti, cəza və cəza təyini ilə bağlı normalar. Qüvvədə olan CM qanunvericilik tarixində ilk dəfə olaraq bütün cinayətlərin qəti surətdə dörd kateqoriyaya təsnifatını müəyyən edir. 1960-cı il CM-də böyük ictimai təhlükə törətməyən, az ağır, ağır cinayətlər, xüsusilə ağır cinayətlər kateqoriya kimi fərqləndirilsə də, cinayətlərin kateqoriyalara bölgüsü fərqli qaydada həll edilmişdi. Məsələn, 1960-cı il CM-in 7-1-ci maddəsində ağır hesab olunan cinayətlər konkret olaraq sadalanmışdı [7, s. 939-940]. 1999-cu il CM öz sələfindən fərqli olaraq cinayətə görə bütün hüquqi nəticələri cinayətlərin kateqoriyaları ilə əlaqələndirir. Cinayət məsuliyyətinə cəlb etmə müddəti, məhkumluğun ödənilməsi müddəti, cəzaçəkmə yerlərinin təyin olunması, cinayətlərin residivi və digər institut və normalar qəti şəkildə cinayətlərin kateqoriyalarına bağlıdır. Bu isə cinayət törətmiş şəxsin vəziyyətinin 1960-cı il CM-lə müqayisədə müəyyən hallarda yaxşılaşdırılması, müəyyən hallarda isə ağırlaşdırılmasına səbəb olmuşdu.

Qeyd edək ki, qanunverici bu məsələnin həllində RF-nin 1996-cı il tarixli CM-in yanaşmasını əsas götürmüşdür. RF CM-in qəbul edilməsindən əvvəl hazırlanmış cinayət qanununun Nəzəri modelində cinayətlərin təsnifatı məhz indiki qaydada təklif edilirdi. Bununla belə, Nəzəri modelin 79-cu maddəsi (qanunla nəzərdə tutulduğundan daha yüngül cəzanın təyin edilməsi) məhkəmələrə, törədilmiş cinayəti qanunla müəyyən edildiyindən daha yüngül kateqoriyaya aid etmək səlahiyyəti verirdi. Bununla, Nəzəri modelin müəllifləri güman ki, Çar Rusiyasının cinayət qanunvericiliyində mövcud olmuş ənənəni bərpa etməyi düşünmüşdülər. Çar Rusiyasının 1845-ci il tarixli Cinayət Qanunnaməsinə (maddə 154) əsasən, əməldə iştirakın növünü, təqsirin növünü və həddini, təqsiri azaldan halları nəzərə alaraq məhkəmələr konkret cinayəti qanunla nəzərdə tutulduğundan bir və ya bir neçə dərəcə aşağı kateqoriyalı cinayət kimi qiymətləndirə bilərdilər [20, c. 50-

52].

Bununla belə, keçmiş sovet respublikalarından heç də hamısı RF CM-in qeyd olunan ümumi həll üsulunu təkrarlamır. Məsələn, Belorus CM-in 84-cü maddəsi [15], Özbəkistan CM-in 69-cü maddəsi [17] və Estoniya CM-in 54-cü maddəsi [19] ittiham hökmünün icra müddətini cinayətin kateqoriyası ilə deyil, təyin olunmuş konkret cəzanın ölçüsü ilə əlaqələndirir; Latviya CM-in 63-cü maddəsi [16] və Özbəkistan CM-in 78-ci maddəsiməhkumluğun ödənilmə müddətini cinayətin kateqoriyası ilə deyil, əmələ görə təyin edilmiş qəti cəza ilə əlaqləndirir (sovet cinayət qanunvericiliyində olduğu kimi); Estoniya CM-in 55-ci maddəsivaxtından əvvəl şərti azad etməni; Ukrayna CM-in 80-ci maddəsi müddətlərin keçməsi ilə bağlı cəzadan azad etməni sovet cinayət qanunvericiliyində olmuş qaydalara uyğun tənzimləyir.

Cinayət qanunvericiliyində edilən dəyişikliklər hər hansı cinayətin kateqoriyasının dəyişməsinə səbəb olduqda yeni normanın zamana görə tətbiqi ilə bağlı məsələ yaranır. Ümumi qaydaya görə, yeni norma konkret cinayəti yüngül kateqoriyaya keçirdikdə yüngülləşdirici qanun hesab olunmaqla geriyə qüvvə yaradır, cinayətin kateqoriysını yüksəldən halda isə əksinə, ağırlaşdırıcı qanun sayılmaqla geriyə qüvvə doğurmur. Məsələn, 2 iyun 2001-ci il tarixli qanunla CM-in 15-ci maddəsinə dəyişiklik edilənədək Məcəllədə 163 az ağır, 131 ağır və 64 xüsusilə ağır cinayət tərkibi olduğu halda, həmin dəyişiklik nəticəsində az ağır cinayətlərin sayı 213-ə yüksəlmiş, ağır cinayətlərin sayı 109-a, xüsusilə ağır cinayətlərin sayı 40-a enmişdi [4, s. 51]. Kommentariya müəllifləri bu dəyişkliyi məqbul hesab etmir, lakin nə üçün məqbul saymadıqlarını əsalandırmamışlar. Bununla belə, qeyd olunan qanun cinayət kateqoriyalarının dairəsini dəyişməkləqeyd olunan üç kateqoriya üzrə ciddi yerdəyişmələr edərək, kateqoriyası dəyişən həmin cinayətləri bu qanunun qüvvəyə minməsinədək törətmiş çox sayda şəxsin vəziyyətinə başqa cür yaxşılaşdırıcı təsir göstərmişdir.

Fikrimizcə, cinayətlərin kateqoriyalara bölgüsünün nəzəri və praktiki əhəmiyyətinə rəğmən, konkret cinayətlərin müəyyən kateqoriyaya aid edilməsi cinayət-hüquq siyasətinin ən həssas, buna görə də problemli məsələləri sırasındadır. Konkret cinayətə görə bütün hüquqi nəticələr həmin cinayətin kateqoriyasına bağlı olduğundan, konkret cinayət tərkibinin müəyyən kateqoriyaya aid edilməsi kifayət qədər tutarlı şəkildə əsaslandırılmalıdır. Ümumiyyətlə isə, qeyd olunmalıdır ki, cinayətlərə görə hüquqi nəticələrin bütünlüklə cinayət kateqoriyalarına bağlanılması həddən ziyadə mexanikləşdirilmiş həll üsuludur və irəlidə müvafiq məsələlərlə bağlı bu həll üsuluna münasibətimiz açıqlanır.

1999-cu il CM öz sələfindən fərqli olaraq, cinayətlərin çoxluğu barədə normaları Ümumi hissədə nəzərdə tutmuşdur. Bunlar cinayətlərin təkrar törədilməsi (maddə 16), cinayətlərin məcmusu (maddə 17) və cinayətlərin residividir (maddə 18).

Təkrarlığın anlayışı 1960-cı il CM-in ilkin redaksiyasında 83-cü və 143-cü maddələrin Qeyd hissəsində verilməklə, müəyyən cinayətlərin eyni bir şəxs tərəfindən yenidən törədilməsi kimi müəyyən olunmuşdu. Qeyd olunan normaya şəxsin əvvəlki cinayətə görə məsuliyyətə cəlb olunub-olunmaması və ya azad edilməsi, habelə məhkumluğun olub-olmaması şərti daxil edilməmişdi. 1960-cı il CM-ə 7 aprel 1998-ci il tarixli qanunla əlavə edilmiş 93-3-cü maddənin Qeyd hissəsində (3-cü bənd) təkrarlıq əlamətinin yaranması üçün məhdudlaşdırıcı şərt – məhkumluğun olması əlavə edildi: “... o cinayət təkrar hesab edilir ki, ... maddələrində nəzərdə tutulmuş cinayətlərdən hər hansı birini törətmiş şəxs tərəfindən edilmiş və onun məhkumluğu ödənilməmiş olsun” [3, s. 84]. Məhdudlaşdırıcı şərt daxil etdiyindən, bu norma cinayət etmiş şəxsin vəziyyətini başqa cür yaxşılaşdırır və buna görə də onun qüvvəsi geriyə şamil

olunurdu.

1999-cu il CM-in ilkin redaksiyada daha bir məhdudlaşdırıcı şərt (əvvəl törədilmiş cinayətə görə bu Məcəllə ilə müəyyən edilmiş qaydada cinayət məsuliyyətindən azad edilmə) əlavə olunsa da, məhkumluqla bağlı məsələ olduğu kimi qalmışdı. Yeni məhdudlaşdırıcı şərt əlavə etdiyinə görə, bu norma əvvəlki analoji norma ilə müqayisədə yüngülləşdirici qanun kateqoriyasına aiddir. Məhkumluqla bağlı məsələnin qəti həllini tapmaması isə, cinayətlərin təkrarlığı və cinayətlərin residivi institutlarının əvvəlki dövrlərdə olduğu kimi qarışıdırlması demək idi. Belə ki, əvvəl müəyyən cinayəti etmiş və məhkum olunmuş şəxs tərəfindən məhkumluq müddəti ərzində yenidən həmin və ya Xüsusi hissə ilə eynicinsli sayılan cinayətin törədilməsi eyni zamanda həm təkrarlıq, həm residiv əlaməti (kolliziya) yaradırdı. Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 18.5, 61.1.1 və 65-ci maddələrinin şərh edilməsinə dair" 18 mart 2013-cü il tarixli qərarı [5] ilə, Azərbaycanın hüquq nəzəriyyəsi və praktikasında 90 ilə yaxın zaman ərzində davam etmiş bu anlaşılmazlıq və kolliziya nəhayət qəti surətdə aradan qaldırılmış oldu. Qərara əsasən, qəsdən cinayət törətməyə görə əvvəllər məhkum olunmuş şəxs tərəfindən yenidən qəsdən eyni və ya həmcins cinayətin törədilməsi cinayətin residivi kimi qəbul edilməli, həmin şəxsin əməli eyni zamanda cinayətlərin təkrar törədilməsi əlaməti ilə tövsif edilməməlidir. Başqa sözlə, Konstitusiya Məhkəməsi qeyd olunan kolliziyanı cinayətlərin residivinin xeyrinə həll etmişdir. Konstitusiya Məhkəməsinin qərarları cinayət etmiş şəxsin vəziyyətini yüngülləşdirən təfsirlər müəyyən etdiyi hallarda, həmçinin geriyə qüvvəyə malikdir.

20 oktyabr 2017-ci il tarixlə CM-in 16.3-cü maddəsinin yeni redaksiyasını da nəzərə alaraq, eyni və ya eynicinsli cinayətlərin təkrar törədilmiş sayılması üçün: 1) əvvəlki cinayətə görə cinayət məsuliyyətinə cəlb etmə müddəti keçmiş olmamalı; 2) şəxs əvvəlki cinayətinə görə cinayət məsuliyyətindən qanuni əsaslarla azad edilmiş olmamalı; 3) əvvəlki cinayətə görə məhkumluq (davam edən, yaxud ödənilmiş və ya götürülmüş) olmamalıdır.

Cinayətlərin məcmusu və bu halda cəza təyini məsələləri 1960-cı il CM-in 38-ci maddəsi ilə tənzim olunurdu və 1960-cı il CM-in qüvvədə olduğu müddətdə bu maddəyə dəyişiklik edilməmişdi. 1999-cu il CM-in 17-ci maddəsi "cinayətlərin məcmusu" terminini bilavasitə istifadə etməklə yanaşı, bu institutun məzmununu da konkretləşdirmiş, real və ideal məcmunu fərqləndirmişdir. Belə ki, CM-in müxtəlif maddələri ilə nəzərdə tutulmuş iki və ya daha çox cinayətin törədildiyi halda cinayətlərin məcmusunun yaranması üçün: 1) həmin cinayətləri törətmiş şəxs onlardan heç birinə görə məhkum edilmiş olmamalı; 2) bu cinayətlərin hər hansı birinə görə qanunla müəyyən edilmiş əsaslarla cinayət məsuliyyətindən azad edilmiş olmamalı; 3) bu cinayətlərdən heç birinə görə cinayət məsuliyyətinə cəlbetmə müddəti keçmiş olmamalıdır. Əvvəlki qanunda olmayan bu konkretlik (2 və 3-cü bəndlər) CM-in 17-ci maddəsini yüngülləşdirici qanun kateqoriyasına aid etməklə onun geriyə qüvvəsini şərtləndirir.

1960-cı il CM-in 24-cü maddəsi cinayət etmiş şəxsin xüsusi təhlükəli residivist sayıla bildiyi halları müəyyən edir və Xüsusi hissənin 15 maddəsində əməlin xüsusi təhlükəli residivist tərəfndən törədilməsi tərkibin tövsifedici və ya xüsusilə tövsifedici əlamətinə aid edilmişdi. Şəxsin xüsusi təhlükəli residivist kimi tanınması bir qayda olaraq məhkəmələrin səlahiyyətinə aid edilmişdi. 1960-cı il CM-də residivin sadə və təhlükəli növləri nəzərdə tutulmadığından, 1999-cu il CM-in 18-ci maddəsi sadə və təhlükəli residivin müəyyən edildiyi hissədə cinayət etmiş şəxsin vəziyyətini başqa cür ağırlaşdıran norma olaraq geriyə qüvvə kəsb etmirdi. Digər tərəfdən, residiv institutunun qüvvədə olan CM-lə detallı tənzimi bir sıra anlaşımazlıqlar yaratmışdı. Bu səbəbdən, Konstitusiya Məhkəməsinin Plenumu "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 18-ci və 83.1-ci

maddələrinin şərh edilməsinə dair" 6 sentyabr 2010-cu il tarixli qərarında [6] CM-in 18-ci maddəsinin mənasında "məhkum olunmuş şəxs" anlayışını təfsir etmiş, "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 18.5, 61.1.1 və 65-ci maddələrinin şərh edilməsinə dair" 18 mart 2013-cü il tarixli qərarında [5] isə cinayətlərin təkrarlığı və cinayətlərin residivi institutlarını qəti şəkildə fərqləndirmişdir.

1999-cu il CM-in qüvvədə olduğu müddət ərzində 18-ci maddəyə üç dəfə dəyişiklik edilmiş və hər üç dəyişiklik residivin əhatəsini məhdudlaşdırdığından, şəxsin vəziyyətini başqa cür yaxşılaşdıran normalar olmaqla geriyə qüvvəyə malikdir.

20 oktyabr 2017-ci il tarixi qanunla həmçinin CM-in 83.3.3-cü maddəsində az ağır cinayətlərə görə azadlıqdan məhrum etmə cəzası ilə bağlı məhkumluq müddətinin 3 ildən 2 ilə dəyişdirilməsi residiv institutuna yüngülləşdirici təsir göstərmiş, daha doğrusu, az ağır cinayətlərə görə residivin yaranma imkanlarını ciddi şəkildə məhdudlaşdırmışdır. Məsələn, CM-in 18.2.1-ci maddəsilə müəyyən olunan təhlükəli residiv zəncirinin az ağr cinayətlərdən təşkil olunması nadir hallarda mümkün ola bilər. Misal: şəxs ilk dəfə az ağır cinayət törətməyə görə 2 il müddətinə azadlıqdan məhrum edilmiş, cəzasını çəkib qurtardıqdan 1 il sonra yenidən az ağır cinayət törətməklə sadə residiv yaratmışdir; ikinci cinayətə görə 3 il cəza almış və cəzanı çəkib qurtardıqdan sonra üçüncü az ağır cinayəti törətmişdir. Bu halda təhlükəli residivin yaranması mümkün deyil, çünki birinci cinayətə görə məhkumluq müddəti (2 il) ikinci cinayətə görə cəza çəkən zaman bitmişdir. Buna görə də, şəxsin əməli təhlükəli residivi (18.2.1-ci maddə) deyil, yenidən sadə residivi (18.1-ci maddə) yaradır.

Cinayət məsuliyyəti ilə bağlı 1999-cu il CM-in gətirdiyi dəyişikliklər sırasında ilk növbədə 14 yaşı tamam olmuş şəxslərin məsuliyyətə cəlb edilməsinə imkan verən əməllərin dairəsinin azladılması (20-ci maddə) və anlaqlığı istisna etməyən psixi pozuntusu olan şəxsin məsuliyyəti ilə bağlı normalar (22-ci maddə) qeyd olunmalıdır. Bizim müəllif təsnifatı üzrə, yaş senzi ilə bağlı CM-də edilən yüngülləşdirici dəyişikliklər cinayət məsuliyyətini istisna edən normalara aid edilir. Anlaqlığı istisna etməyən psixi pozuntusu olan şəxsin məsuliyyəti ilə bağlı normalar isə cinayət törətmiş bu kateqoriya şəxslərin vəziyyətini başqa cür yaxşılaşdıran norma hesab olunmalıdır. Çünki qanunvericinin məsələyə yanaşması birmənalı deyil: bu şəxslər barəsində cəza təyin etmək, yaxud tibbi xarakterli məcburi tədbirlər tətbiq etmək məhkəmələrin mülahizəsinə həvalə olunmuşdur.

Cəza təyini ilə bağlı normalar sistemində (CM-in X fəsli) müəyyən yeniliklər edilmişdir, xüsusən:

a) CM-in 58.1-ci maddəsinə əsasən, alternativ sanksiyalarda nəzərdə tutulmuş cəzalardan daha ciddi cəza növü və ya həddi yalnız o halda təyin edilir ki, az ciddi cəza növü və ya həddi cəzanın məqsədini təmin edə bilmir. Aydındır ki, bu məsələ məhkəmənin mülahizəsinə həvalə olunur. Alternativ sanksiyalarla bağlı məsələni həll edən hər bir halda məhkəmə az ciddi cəza növünün və ya həddinin cəzanın məqsədini təmin edə bilməməsi qənaətinə gəlməli və bunu əsaslandırmalıdır. Lakin nəzərdən keçirilmiş məhkəmə hökmlərində məhkəmələr daha ciddi cəza növünü və ya həddini seçərkən, az ciddi cəza növünü və ya həddini məqbul hesab etmədiklərini qeyd etməklə kifayətlənir, daha ciddi cəza növünü və ya həddini nə üçün seçdiklərini çox vaxt əsaslandırmırlar.

Bu norma ciddi əhəmiyyətə malik olsa da, onun tətbiqi ilə bağlı təcrübi meyarlar işlənilib hazırlanmamışdır. «Məhkəmələr tərəfindən cinayət cəzalarının təyin edilməsi təcrübəsi haqqında» Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 2003-cü il 25 iyun tarixli 4 saylı qərarında

məsələ ilə bağlı müəyyən qeydlərlə məhdudlaşır. Belə ki, qərarın 2-ci bəndində göstərilir ki, şəxsin təqsirli bilindiyi maddənin sanksiyası azadlıqdan məhrum etmə ilə yanaşı yüngül cəza növləri nəzərdə tutursa, hökm çıxarılarkən azadlıqdan məhrum etmə cəzası təyin etdikdə bu qərar hökmdə əsaslandırılmalıdır [1].

Bundan başqa, ən yüngül cəza növü kimi cərimənin təyin edilməsi ilə bağlı göstərilir ki, məhkum edilənin əmək haqqının və ya başqa gəlirinin aşağı olması ona əsas cəza kimi cərimə cəzası əvəzinə sanksiyada nəzərdə tutulan başqa daha ağır cəza təyin edilməsi üçün əsas ola bilməz. Başqa sözlə, məhkəmələr təqsirləndirilən şəxsin kifayət qədər gəliri olmaması səbəbindən cərimə cəzasının təyin edilməsində imtina etməməlidirlər. Bu məsələ müəyyən mübahisələr doğurur. Qüvvədə olan CM-in 44.2-ci maddəsinə əsasən, törədilmiş cinayətin ağırlığı və məhkumun əmlak vəziyyəti nəzərə alınmaqla iyirmi min manatadək miqdarda və ya cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) bir mislindən on mislinədək miqdarda müəyyən olunur. CM-in 44-cü maddəsinə əsasən, cəriməni ödəməkdən qəsdən boyun qaçıran şəxslərə bu cəza növü ictimai işlər, islah işləri, azadlığın məhdudlaşdırılması və ya müəyyən müddətə azadlıqdan məhrum etmə ilə əvəz oluna bilər.

Beləliklə sual yaranır: cərimənin ödənilməsindən qəsdən boyun qaçırmayan, lakin cəriməni ödəmək üçün obyektiv imkanı olmayan şəxslər barədə məsələ necə həll edilməlidir? Hesab edirik ki, təqsirləndirilən şəxsin cərimə cəzasından imtina edərək bir pillə daha ciddi cəza növünü seçmək hüququ olmalıdır. Tərəfimizdən aparılmış sorğuda iştirak edən respondentlərin 41 faizi şəxsin belə bir hüququnun olmasına müsbət yanaşdığını bildirmişdir.

Plenumun istinad olunan qərarında cəzanın ilk növbədə məhkumun islah olunmasına xidmət etməli olduğu vurğulanır. Bu cümlənin ardınca göstərilir ki, cəzaların tətbiqi məsələləri müzakirə edilərkən eyni zamanda təqsirli şəxsin ailədə mənfi davranışını təsdiq edən məlumatların olub-olmaması (məsələn, sərxoşluğa qurşanması, ailə üzvlərinə qəddar münasibət göstərməsi, uşaqların tərbiyəsinə mənfi təsir göstərən hərəkətlərə yol verməsi və sair) kimi hallara diqqət edilməlidir.

Göründüyü kimi, Ali Məhkəmə şəxsin məişətdə mənfi saya biləcək davranışını onun azadlıqdan məhrum etmə yolu ilə islah olunmasına əsas hesab edir. Fikrimizcə, bu cür yanaşmalar sovet sisteminin cinayət və cəza fəlsəfəsindən irəli gəlməklə, onun ətalətlə davamı hesab oluna bilər. Məişət zəminində cinayətlərin əksəriyyəti şəxsin acınacaqlı məişət durumu ilə birbaşa əlaqəlidir. İşsizlik, kredit borcları, gəlir artımının daimi artan qiymətlərə uyğun olmaması, informasiya cəmiyyətinə çevrilmənin təsirlərindən dolayı ailələrdə gərginliyin artması, boşanma meyllərinin güclənməsi və sair hallar insanların stressini artırır ki, bu da xoşagəlməz davranış aktları ilə müşayiət oluna bilir. Təfərrüata varmadan sadəcə onu qeyd edək ki, şəxs yalnız törədiyi konkret cinayətə görə cavabdeh olmalı, digər hər hansı xarakteristikalar yalnız qanunda cəzanı ağırlaşdıran və ya yüngülləşdirən hallara aid olduğu təqdirdə cəza təyin edərkən nəzərə alınmalıdır.

b) CM-in 58.3-cü maddəsi təyin olunmuş cəzanın şəxsin islah olunmasına və onun ailəsinin həyat şəraitinə təsirinin nəzərə alınmalı olduğunu tələb edir. 1999-cu il CM-in qəbul edilməsindən əvvəlki məhkəmə praktikasında məhkəmələr təyin edilən cəzaların məhkumun ailə vəziyyətinə təsirini cəzanı yüngülləşdirən sair hallar qismində nəzərə alırdılar. 1960-cı il CM-in 36-cı maddəsilə müəyyən edilmişdi ki, məhkəmə cəza təyin edərkən, həmin maddədə göstərilməmiş yüngülləşdirici hallardı da nəzərə ala bilərlər. Yəni, bu məsələ məhkəmə praktikası üçün yeni deyildir, sadəcə, qanunda bilavasitə təsbit edilmişdir. Əsas fərq ondadır ki, hazırda bu məsələ cəzanı yüngülləşdirən hal qismində deyil, cəza təyin edilməsinin ümumi əsaslarına daxildir. Fikrimizcə, bu məsələni cəza təyinin ümumi əsaslarından biri kimi təsbit etməkdə qanunvericinin məqsədi – cəzanın “kollektiv

təsirini” nisbətən yumşaltmağa və digər tərəfdən, cəzanın sosial ədalətin bərpası məqsədini optimallaşdırmağa xidmət edir. Belə ki, məsələn, ailənin yeganə gəlir mənbəyi olan təqsirləndirilən şəxsin azadlıqdan məhrum edilməsi və ya yüksək məbləğdə cərimə olunması ailənin rifahına ciddi təsir göstərməklə kollektiv iztirablara səbəb olur. Buna görə, təqsirləndirilən şəxs barəsində cəza təyin edərkən məhkəmələr bu cəzanın onun himayəsində olan adamlara neqativ təsirini mümkün qədər nəzərə almalıdırlar.

c) Cinayət-hüquq ədəbiyyatlarında əksər müəlliflər cəzanı yüngülləşdirən halların dairəsini genişləndirən qanunu başqa cür yaxşılaşdıran qanun hesab edirlər. Lakin bu mövqe ilə razılaşmayan müəlliflər də var. Məsələn, A.N.Barkanov hesab edir ki, əvvəliki cinayət qanunu cəzanı yüngülləşdirən halları yalnız həmin maddədə göstərilən hallarla məhdudlaşdırmırdı, məhkəmələr başqa halları da yüngülləşdirici qisimdə nəzərə almaq səlahiyyəti vermişdi. Buna görə, hansı qanunun məhkəmələrə daha geniş seçim verdiyini qət etmək çətin olduğundan, belə qanunları yüngülləşdirici hesab etmək doğru deyil [8, s. 146]. Fikrimizcə, bu məsələdə Barkanovun mövqeyi düzgün sayıla bilməz. Əvvəlki qanunda birbaşa göstərilməyən halları cəzanı yüngülləşdirən hal qismində nəzərə almağı tələb edən yeni qanun əvvəlki qanuna nisbətən təqsirləndirilən şəxsin vəziyyətini başqa cür yaxşılaşdıran qanun hesab olunmalıdır, çünki, əvvəlki qanun bu məsələni məhkəmələrin səlahiyyətinə həvalə etdiyi halda (məhkəmə onu nəzərə ala və ya almaya bilərdi), yeni qanunla məhkəmlər onu nəzərə almaya bilməz.

ç) Qüvvədə olan CM-in 60-cı maddəsi (cəzanı yüngülləşdirən hallar olduqda cəzanın təyin edilməsi) cinayət qanunvericiliyi tarixində mühüm yeniliklərindən biridir. CM-in ilkin redaksiyasında bu norma CM-in 59.1.9-59.1.10-cu maddələrilə göstərilən yüngülləşdirici halların mövcud olduğu (və cəzanı ağırlaşdıran halların olmadığı) hallarda təyin edilən daha ciddi cəzanın yuxarı həddinin dörddə üçündən artıq olmamalı olduğunu müəyyən etmişdi. 1960-cı il CM-də belə bir normanın olmadığına görə, 1999-cu il CM-in bu yeniliyi cinayət törətmiş şəxsin vəziyyətini birmənalı olaraq yaxşılaşdırır. Lakin bu normanın cəzanı yüngülləşdirən və ya şəxsin vəziyyətini başqa cür yaxşılaşdıran norma hesab edilməsi birmənalı deyildir. Bir sıra müəlliflər bu yeniliyi şəxsin vəziyyətini başqa cür yaxşılaşdıran normalar kateqoriyasına aid edirsə [14, s. 37-38; 8, s. 146], digər müəlliflər cəzanı yüngülləşdirən qanun hesab edirlər [10, s. 153]. Tərəfimizdən aparılmış sorğuda respondentlərin 68 faizi bu normanı cəzanı yüngülləşdirən, 24 faizi başqa cür yaxılaşdıran norma hesab etmişlər.

Faktiki olaraq, bu norma mümkün cəzanı sanksiyanın daha ciddi cəza növünün yuxarı həddinin dörddə üçü qədər yüngülləşdirir. Bununla belə, yuxarıda cəzanı yüngülləşdirən qanuna verdiyimiz tərifə əsasən, hesab edirik ki, bu norma cinayət törərtmiş şəxsin vəziyyətini başqa cür yaxşılaşdıran normalar kateqoriyasına aid edilməlidir, çünki cəzanı şərtsiz azaldan yeni normalardan fərqli olaraq, bu norma cəzanın azaldılmasını müəyyən hədlə əlaqələndirir.

Onu da qeyd edək ki, 20 oktyabr 2017-ci il tarixli qanunla bu yeniliyi heçə endirən dəyişiklik edilmişdir. Belə ki, CM-in yeni redaksiyasında 60.1-ci maddəyə əsasən, 59.1.8, 59.1.10 - 59.1.13-cü maddələrinin hər hansı birində nəzərdə tutulmuş bütün hallar mövcud olduqda və əgər cəzanı ağırlaşdıran hallar yoxdursa, təyin olunan cəzanın müddəti və ya həcmi bu Məcəllənin Xüsusi hissəsinin müvafiq maddəsində nəzərdə tutulmuş daha ciddi cəza növünün son həddinin dörddə üçündən artıq ola bilməz. CM-in 59.1.8, 59.1.10 -59.1.13-cü maddələrinin hər hansı birində nəzərdə tutulmuş bütün halların mövcud olması və üstəlik, cəzanı ağırlaşdıran hər hansı halın mövcud olmaması praktiki cəhətdən qeyri-mümkün məsələdir. Faktik olaraq, bu dəyişiklik çox mütərəqqi normanı ləğv həddində məhdudlaşdıran lazımsız addım kimi qiymətləndirilməlidir. Müvafiq olaraq,

bu dəyişiklik şəxsin vəziyyətini pisləşdirən hal hesab olunmaqla, qüvvədə olan CM-in bu hissədə geriyə qüvvəsini istisna edir. Fikrimizcə, 20 oktyabr 2017-ci il tarixli qanunla CM-in 60-cı maddəsinə edilmiş bu dəyişiklik ləğv edilməlidir. Apardığımız sorğuda iştirak edən respondetlərin əksəriyyəti (81%) ilkin redaksiyanı daha məqbul hesab etdiklərini bildirmişlər.

d) 1999-cu il CM-in 62-ci maddəsi (Cinayətə görə müəyyən edilmiş cəzadan daha yüngül cəza təyin edilməsi) 1960-cı il CM-in analoji 40-cı maddəsi ilə müqayisədə bu institutun daha geniş tətbiqini mümkün edən konkretləşdirmələr etmişdir. Bundan əlavə, iki hal xüsusilə vurğulanmalıdır: 1) əvvəlki CM-dən fərqli olaraq yeni CM məhkəmələrə təyin edilməsi məcburi olan əlavə cəzanı təyin etməmək səlahiyyəti verir; 2) 62.2.-ci maddə cəzanı yüngülləşdirən həm ayrı-ayrı halların, həm də belə halların məcmusunun müstəsna hal hesab edilməsini mümkün sayır. Bu normalar 1999-cu il CM-in 62-ci maddəsinin 1960-cı il CM-in 40-cı maddəsi ilə müqayisədə şəxsin vəziyyətini başqa cür yaxşılaşdıran qanun hesab etməyə əsas verir.

e) Maddə 63 (Başa çatmayan cinayətə görə cəza təyin edilməsi) cinayət qanunvericiliyi tarixində yenilikdir. Həmin maddəyə əsasən, cinayətə hazırlığa görə cəzanın müddəti və ya həcmi Xüsusi hissənin müvafiq maddəsində başa çatmış cinayətə görə müəyyən edilmiş daha ciddi cəza növünün yuxarı həddinin yarısından, cinayət etməyə cəhdə görə cəzanın müddəti və ya həcmi isə Xüsusi hissə maddəsində başa çatmış cinayətə görə müəyyən edilmiş daha ciddi cəza növünün yuxarı həddinin dörddə üçündən çox ola bilməz. Bundan əlavə, cinayətə hazırlığa və ya cəhdə görə ömürlük azadlıqdan məhrum etmə növündə cəzanın təyini istisna olunur.

ə) 1999-cu il CM-in 70-ci maddəsi (Şərti məhkum etmə) 1960-cı il CM-in analoji 41-ci maddəsi ilə müqayisədə şəxsin vəziyyətinin yaxşılaşdırır. Belə ki, 1960-cı il CM-də şərti məhkum etmə azadlıqdan məhrum etmə və ya islah işləri ilə məhdudlaşdırıldığı halda, 1999-u il CM-in 70.1-ci maddəsi islah işləri, hərbi xidmət üzrə məhdudlaşdırma, intizam xarakterli hərbi hissədə saxlama və müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzalar üçün şərti məhkum etmənin mümkün etmişdir. Digər yaxşılaşdırıcı hal - sınaq müddətinin əvvəlki Məcəllə ilə 1 ildən 5 ilədək müəyyən edildiyi halda, yeni qanunla altı aydan 5 ilədək müəyyən edilməsidir.

## Biblioqrafiya

1. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun “Məhkəmələr tərəfindən cinayət cəzalarının təyin edilməsi təcrübəsi haqqında” 2003-cü il 25 iyun tarixli 4 saylı qərarı. [Elektron resurs]. URL: http://supremecourt.gov.az/post/view/151 (müraciət tarixi: 09.03.2022).

2. Azərbaycan Respublikasının 1999-cu il Cinayət Məcəlləsi (01 dekabr 2021-ci ilə olan əlavə və dəyişikliklərlə). [Elektron resurs]. URL: http://e-qanun.az/framework/46947 (müraciət tarixi: 09.03.2022).

3. Azərbaycan SSR-in 1960-cı il Cinayət Məcəlləsi / Cinayət Qanunlar Külliyyatı (1920-2000). - Bakı: Hüquq Yayın evi, 2014. - 1182 s.

4. Azərbaycan Respublikasının 1960-cı il Cinayət Məcəlləsi (26 iyul 1999-cu il tarixə olan əlavə və dəyişikliklərlə). - Bakı: Hüquq ədəbiyyatı, 1999. - 278 s.

5. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin kommentariyası / prof. F.Y.Səməndərovun redaktorluğu ilə. I Hissə. - Bakı: Hüquq yayın evi, 2018. - 704 s.

6. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun “Azərbaycan Respublikası

Cinayət Məcəlləsinin 18.5, 61.1.1 və 65-ci maddələrinin şərh edilməsinə dair" 18 mart 2013-cü il tarixli qərarı. [Elektron resurs]. URL: http://www.constcourt.gov.az/decisions/266 (müraciət tarixi: 03.03.2022).

7. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 18-ci və 83.1-ci maddələrinin şərh edilməsinə dair" 6 sentyabr 2010-cu il tarixli qərarı. [Elektron resurs]. URL:http://www.constcourt.gov.az/decisions/182 (müraciət tarixi: 03.03.2022).

8. Барканов А.Н. Обратная сила уголовного закона. Дис. ... канд. юрид. наук. Саратов, 2000, 191 с.

9. Галиев Б.Б. Темпоральное действие уголовного закона (сравнительно-правовое исследование по законодательству Казахстана и России). Дис… канд. юрид. наук. Челябинск, 2006, 197 с.

10. Ерасов А.М. Обратная сила уголовного закона. Дис... канд. юрид. наук. М., 2004, 217 с.

11. Журавлева Е.М. Действие уголовного законодательства Российской Федерации *во* времени. Дис… канд. юрид. наук. М., 1997, 180 с.

12. Курс уголовного права. В 5-ти т. /Под ред. Н.Ф. Кузнецовой, И.М. Тяжковой. Т. 1. Общая часть. Учение о преступлении. - М.: ИКД Зерцало-М, 2002. - 624 с.

13. Ляпунов Ю.И. Действие во времени норм Общей части уголовного законодательства // Социалистическая законность. - 1983. – №8. – С. 28-31.

14. Попов А.Н. Уголовный закон и его обратная сила. Серия Современные стандарты в уголовном праве и уголовном процессе / Научн. ред. Б.В. Волженкин. – СПб., 1998. – 48с.

15. Уголовный кодекс Республики Беларусь. [Elektron resurs]. URL: http://уголовный-кодекс.бел (müraciət tarixi: 16.03.2022).

16. Уголовный кодекс Латвии. [Elektron resurs]. URL:http://www.pravo.lv/likumi/07_-uz.html (müraciət tarixi: 17.03.2022).

17. Уголовный кодекс Узбекистана. [Elektron resurs]. URL:http://online.zakon.kz/Document/?doc_id=30421110#pos=1;-173 (müraciət tarixi: 17.03.2022).

18. Уголовный кодекс Украины. [Elektron resurs]. URL: https://meget.kiev.ua/kodeks/ugolovniy-kodeks/ (müraciət tarixi: 16.03.2022).

19. Уголовный кодекс Эстонии. [Elektron resurs]. URL:http://constitutions.ru/?p=446 (müraciət tarixi: 16.03.2022).

20. Уложение о наказаниях уголовных и исправительных 1845 года. – Санкт-Петербург: Тип. 2 отд-ния собств. е. и. в. канцелярии, 1845. – 898 с.

**Исбендияров Г.К.**[♦]

**DOI: 10.25108/2304-1730-1749.iolr.2022.67.85-97**
**УДК: 34; 343; 343.2; 343.21; 243.213**

## Общее понятие и возможные случаи закона, улучшающего иным образом положение лица совершившего преступление

**Аннотация**: Несмотря на то, что после развала СССР, в странах завоевавших независимость, в том числе в Азербайджанской Республике, прошло более 20 лет с момента введения в уголовное законодательство норм, иным образом улучшающих положение лица, совершившего преступление, и за это время было проведено множество научно-исследовательских работ, окончательное понятие этогозакона, возможные формы и систематическая классификация все еще не разработаны.

Хотя нормы, иным образом улучшающие положение лица, совершившего преступление, в основном содержатся в соответствующих главах Общей части уголовного закона, они не ограничиваются этими главами и встречаются также в других главах. Этим обстоятельством определено, что это относится не только к нормам, иным образом улучшающим положение лица, совершившего преступление, но и к нормам, устраняющим преступность деяния и смягчающим наказание.

В представленной статье, хотя и в общем виде, предпринимается попытка разрешить эту задачу.

**Ключевые слова:** лицо совершившее преступление; иным образом улучшающее положение лица; уголовное законодательство; преступное деяние; нормы, устраняющие преступность деяния; нормы смягчающие наказание; уголовно-правовая норма; Общая часть Уголовного кодекса, Особенная часть Уголовного кодекса.

### Библиография

1. Постановление № 4 Пленума Верховного Суда Азербайджанской Республики от 25 июня 2003 года «О практике применения судами уголовных наказаний». [Электронный ресурс]. Режим доступа: http://supremecourt.gov.az/post/view/151 (дата обращения: 09.03.2022) (на азерб. яз.).

2. Уголовный кодекс Азербайджанской Республики 1999 года (с изменениями и дополнениями от 1 декабря 2021 года). [Электронный ресурс]. Режим доступа: http://e-qanun.az/framework/46947 (дата обращения: 09.03.2022) (на азерб. яз.).

3. Уголовный кодекс Азербайджанской ССР 1960 года / Сборник уголовных законов (1920-2000). - Баку: Huquq Yayin evi, 2014. - 1182 с.

4. Уголовный Кодекс Азербайджанской Республики 1960 года (с изм. и доп. на 26 июля 1999 г.). - Баку: Юрид. лит-ра, 1999. - 278 с. (на азерб. яз.).

[♦] **Исбендияров Галандар Кочари оглы** - старший научный сотрудник отдела «Уголовное право и уголовный процесс» Института права и прав человека (Азербайджан). E-mail: q.isbandiyarov@gmail.com

5. Комментарий к Уголовному Кодексу Азербайджанской Республики. Часть 1. Под ред. проф. Ф. Самандарова. – Баку: Huquq yayin evi, 2018. - 704 с. (на азерб. яз.).

6. Постановление Пленума Конституционного Суда Азербайджанской Республики от 18 марта 2013 г. «О толковании ст. ст. 18.5, 61.1.1 и 65 Уголовного Кодекса Азербайджанской Республики». [Электронный ресурс]. Режим доступа: http://www.constcourt.gov.az/decisions/266 (дата обращения: 03.03.2022) (на азерб. яз.).

7. Постановление Пленума Конституционного Суда Азербайджанской Республики от 6 сентября 2010 г. «О толковании ст. ст. 18 и 83.1 Уголовного Кодекса Азербайджанской Республики». [Электронный ресурс]. Режим доступа: http://www.constcourt.gov.az/decisions/182 (дата обращения: 03.03.2022) (на азерб. яз.).

8. Барканов А.Н. Обратная сила уголовного закона. Дис. ... канд. юрид. наук. Саратов, 2000, 191 с.

9. Галиев Б.Б. Темпоральное действие уголовного закона (сравнительно-правовое исследование по законодательству Казахстана и России). Дис… канд. юрид. наук. Челябинск, 2006, 197 с.

10. Ерасов А.М. Обратная сила уголовного закона. Дис... канд. юрид. наук. М., 2004, 217 с.

11. Журавлева Е.М. Действие уголовного законодательства Российской Федерации *во* времени. Дис… канд. юрид. наук. М., 1997, 180 с.

12. Курс уголовного права. В 5-ти т. /Под ред. Н.Ф. Кузнецовой, И.М. Тяжковой. Т. 1. Общая часть. Учение о преступлении. - М.: ИКД Зерцало-М, 2002. - 624 с.

13. Ляпунов Ю.И. Действие во времени норм Общей части уголовного законодательства // Социалистическая законность. - 1983. – №8. – С. 28-31.

14. Попов А.Н. Уголовный закон и его обратная сила. Серия Современные стандарты в уголовном праве и уголовном процессе / Научн. ред. Б.В. Волженкин. – СПб., 1998. – 48с.

15. Уголовный кодекс Республики Беларусь. [Электронный ресурс]. Режим доступа: http://уголовный-кодекс.бел (дата обращения: 16.03.2022).

16. Уголовный кодекс Латвии. [Электронный ресурс]. Режим доступа: http://www.pravo.lv/likumi/07_uz.html (дата обращения: 17.03.2022).

17. Уголовный кодекс Узбекистана. [Электронный ресурс]. Режим доступа: http://online.zakon.kz/Document/?doc_id=30421110#pos=1;-173 (дата обращения: 17.03.2022).

18. Уголовный кодекс Украины. [Электронный ресурс]. Режим доступа: https://meget.kiev.ua/kodeks/ugolovniy-kodeks/ (дата обращения: 16.03.2022).

19. Уголовный кодекс Эстонии. [Электронный ресурс]. Режим доступа: http://constitutions.ru/?p=446 (дата обращения: 16.03.2022).

20. Уложение о наказаниях уголовных и исправительных 1845 года. – Санкт-Петербург: Тип. 2 отд-ния собств. е. и. в. канцелярии, 1845. – 898 с.